

## XATUN

### Elin dərdi bir olsa

*"Elin dərdi bir olsa, şairin yüz dərdi var"*
***(Şahmməd Dağlaroğlu)***

Dəyirmanlar qalmayıb indi eldə- obada,
Buğdanın dadı getdi vəldə, xışda, yabada.
Çörəyin iyi gəlmir daha dəmir sobada,
Dədə-baba adəti itib, bir iz dərdi var,
"Elin dərdi bir olsa, şairin yüz dərdi var".

Tikanlar vəcdə gəlib dövrəsində çiçəyin,
Barmaqları incidir, gözdən salır ləçəyin.
Səadət qucağında xumarlanan göyçəyin
Yanında nisgillənən bir kəmbəniz dərdi var,
"Elin dərdi bir olsa, şairin yüz dərdi var".

Kim nə əkir biçəcək, buna mənim sözüm yox,
Kimsəyə düşən payda, qismətində gözüm yox.
Ürəimdə dərd şişib, demirəm ki, dözüm yox,
Ömrümün payızıdı, çiçəkli yaz dərdi var,
"Elin bir dərdi olsa, şairin yüz dərdi var".

Fələyin od yağdıran ələyinə nə deyim,
Ruzigarın tikanlı bələyinə nə deyim?!
Uman yerdən küsənin gileyinə nə deyim?!
Başın öz baş dərdi var, dizin də diz dərdi var,
"Elin bir dərdi olsa, şairin yüz dərdi var".

Bu el-oba bizimdir, biz də onun balası,
Qəlbimizdən keçəcək hər dərdi, hər bəlası.
Qura bilsək sözlərdən şeir, sənət qalası
Hamıdan fərqli olan pak və təmiz dərdi var,
"Elin bir dərdi varsa, şairin yüz dərdi var".

Dünyaların içində öz dünyasın itirsə,
Xatın itər əbədi, söz dünyasın itirsə.
Qadınlığın içində qız dünyasın itirsə
Başdan daşan həsrəti, ocağın köz dərdi var,
"Elin bir dərdi olsa, şairin yüz dərdi var".

### Mərdlər qaça-qaça namərd olur

*"Mərdlərin çiynində durur bu həyat"*
***(Musa Yaqub)***

Barmaqla sananır yaxşılar indi,
Əyrilər düzləri tora salandan.
Qara ruzigarın küləyi dindi,
Mərdlər qaça-qaça namərd olandan.

***

Toplanıb dünyanın varı-dövləti
Bir ovuc varlının xəzinəsində.
Kasıbın arzusu, ümman həsrəti,
Ağrı-sinəsində, dağ-sinəsində.

Yaxşılar sıyrılıb zirvədən endi,
Doğrunun ağrıdan gözü dolandan.
Qara ruzigarın küləyi dindi
Mərdlər qaça-qaça namərd olandan.

***

Yamanlar atını çapdı dördnala,
Meydanları geniş, əlləri uzun.
Göyün yiyəsinə dönüb az qala
İddiasındadır göydə ulduzun.

Hardasa kiminsə ulduzu söndü,
Tamahı qoruyan daş yarılandan.

Qara ruzigarın küləyi dindi,
Mərdlər qaça-qaça namərd olandan.
***
Daha şirinliyi yoxdu balın da
Zəhər ümid yeri olandan bəri.
Həyatın bu ağır qeyrü-qalında
Ürək qəhərlərlə dolandan bəri.

Döndü zəmanənin növrağı döndü,
Fağırlar çarəsiz, naçar qalandan.
Qara ruzigarın küləyi dindi
Mərdlər qaça-qaça namərd olandan.
***
Əl atıb havanı zəhərləyiblər,
Göydən bəla yağır, göydən dərd yağır.
Allahın acığı tutub deyirlər
Çöllərə, düzlərə min lənət yağır.

Bu necə nalədi, bu necə ündü?
Məhv olur təbiət hərbi talandan.
Qara ruzigarın küləyi dindi
Mərdlər qaça-qaça namərd olandan.
***
Qurunun oduna yaş da yanacaq,
Qovrula-qovrula daş ovulanda.
Yaxşılar hamıdan başda yanacaq
Qiyamət olanda, məşər olanda.

Barmaqla sananır yaxşılar indi
Əyrilər düzləri tora salandan.
Qara ruzigarın küləyi dindi,
Mərdlər qaça-qaça namərd olandan.

## *Göynəyir*

Bu zülüm qismətim, yazımdı, demə,
Hər gündə yediyim ruzimdi, demə.
Ölümün özünə nazımdı, demə,
Hər keçən ağrılı ilim göynəyir.

Şirin arzu, xəyal qurdum içimdə,
Ümidi gümanı yordum içimdə.
Təşnə ürəyimi qırdım içimdə,
Ağzımda böyüyən dilim göynəyir.

Neyləyim bu sınıq məhəbbətimi,
Xəzana tuş olan hərarətimi?
Qəlbimi yandıran bu həsrətimin-
Odunun üstündə külüm göynəyir.

Bu dərd alov olub qanımdan axır,
Ürəyimdən keçib gözümdən baxır
Uda, neyə dönüb yandırıb yaxır,
Bəmim inildəyir, zilim göynəyir.

Dilimi dişimə tutub durmuşam,
Gözümün yaşıyla yatıb durmuşam.
Yeriyib özümə çatıb durmuşam,
Dərdimdən yazanda əlim göynəyir.

Həlli tapılmayan cəbrimə doğru,
Yol aldım daş-qaya səbrimə doğru.
Gedirəm diriykən qəbrimə doğru,
Ruhumu yandırıb ölüm göynəyir.

## *Düşər*

Doğrudur meyarı kişinin, ərin,
Yalan danışarsa hörmətdən düşər.
Yaxşıya verərlər qızıl dəyərin,
Onun da saxtası qiymətdən düşər.

Çürük ağac olar ruhsuz bir bədən,
Heyvana bənzəyir nəfsini güdən.
Öz el-obasına xəyanət edən
Qalxdığı zirvədən, şohrətdən düşər.

Allah çox eyləyər dərdin, cəfasın,
Oğulun nankorun, qızın yavasın.
Uduzar hamının xeyir-duasın,
Payına tənədən, töhmətdən düşər.

Haqqa tapınmazsa kişi, ya qadın,
Xar olar yanında, doğmanın, yadın.
Ölüm şərbətinin biləndə dadın,
İtər könüllərdən, söhbətdən düşər.

## *Oğluma yox deyən qıza*

Sən sevə bilmirsən, dedin oğlumu,
Onun ürəyinə qəm gətirmisən.
Yandırıb həsrətin, dərdin oğlumu,
Nisgilli gözünə nəm gətirmisən.

Deyirsən fələkdən atılıb daşı,
Səni ürəyindən tez silməlidi.
Yox, gözəl, savadsız həkimin başı,
Dərd verən əllər də kəsilməlidi.

Bilirəm özünə heyifin gəlir,
Güzgüyə baxanda düşündün bunu.
Sənin tək qəlbsizlər axı nə bilir
Əsil məhəbbətin nə olduğunu?!!

## *Qayıda bilmərəm*

Ömrümü geriyə qayıda bilsəm,
Qismət payım kimi izlərdim səni.
Sən gedən yollarda, yol ayrıcında,
Bir ömür boyunca gözlərdim səni.

Bir dəli sevdanın əlindən tutub,
Göydən mələk kimi enə bilərdim.
Bəlkə həyatının mənası olub,
Çəkdiyin nəfəsə dönə bilərdim.

Heyif ki, araya illər sədd çəkib,
Mən ötüb keçmişəm sən gedən yolu.
Arada payız var, arada qış var
Hələ gələcəksən mən gedən yolu.

Nə olsun ürəyim bahardı hələ
Hələ də çiçəyi gülü solmayıb?!?
Bir ümüd basdırdım uşaq yaşında,
Mənim məhəbbətim olü olmayıb.

Sən aşa bilməzsən bu uca dağı,
Aradan qayanı, daşı götürmə.
Neçə il gəlsən də sən mənə tərəf,
Ömrümün üstündən yaşı götürmə.

Nədi gümanının sözü, bilmədim,
Mən dərin dəryayam, üzə bilməzsən.
Sən hələ sevməyi öyrən bir az da,
Sən mənim dünyama dözə bilməzsən.

## *Qınama Xatını*

Gəl məni qınama, ay nadan adam,
Ürəyin alışar, naləsin çəkər.
Başının üstündə fələk oynayar,
Qaradan, zülmətdən haləsin çəkər.

Düşərsən alova, yanarsan oda,
Möhtac da olarsan doğmaya,yada.
Alar varlığını xəstəlik, qada,
Canın min bir dərdin şələsin çəkər.

Az qına, yamanla dərdli Xatını,
Meydanı boş görüb sürmə atını.
Görərsən məşərin yeddi qatını
Başın bu dünyada bəlasın çəkər.

## *Bəs nə zaman*

Bu dərdimin başı niyə ağarmır?
Öz saçıma ara-sıra dən düşər.
Qara daşlar göyərdərmiş ot-mamır,
Məndən niyə çiçəkli yaz gen düşər?

Yollarımda min-bir tələ quranlar,
Ümidimi ürəyimdə qıranlar.
Bilməzlərmi bir iman var, quran var,
Allahsızlar cəhənnəmə yön düşər.

Usanmadım halallıqdan, halaldan,
Düz yol keçir çox ağrıdan, məlaldan.
Əl çəkmədin, Xatın, şirin xəyaldan,
Bəs nə zaman taleyimə gün düşər?!?

